## Sərnişin və yük daşımalarının həyata keçirilmə qaydaları

*Bunun üçün lisenziya və «Fərqlənmə nişanı» alınmalıdır*

Məlumat üçün qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2002-ci il tarixli fərmanı ilə «Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar» və «Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri» təsdiq edilmişdir. Qeyd edilən fərmanın tələblərinə əsasən, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinə aid edilmişdir və həmin fəaliyyətlə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən verilir.

Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsinin şərtləri, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarının lisenziyalaşdırılmasının xüsusiyyətləri və bununla bağlı digər məsələlər «Avtomobil nəqliyyatı haqqında» Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir. «Avtomobil nəqliyyatı haqqında» Qanunun 13.1-ci maddəsinə əsasən, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları xidmətlərinin istehlakçılarının qanuni maraqlarının qorunması, bu sahədə inhisarçılığın qarşısının alınması, daşımaların təhlükəsizliyinin, ətraf mühitin və əməyin mühafizəsinin təmin olunması məqsədilə bu fəaliyyət növləri ilə məşğul olan hüquqi şəxslərin və fərdi sahibkarların fəaliyyəti lisenziyalaşdırılır. Qeyd edilən qanunla müəyyən edilmiş hallar istisna edilməklə, xüsusi razılıq (lisenziya) olmadan və ya digər şəxslərə məxsus xüsusi razılıq (lisenziya) əsasında sərnişin və yük daşımalarının yerinə yetirilməsinə yol verilmir.

Vergi ödəyiciləri xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan və ya lisenziyalaşdırılma şərtləri pozulmaqla sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa görə, vurulmuş ziyanın məbləğindən asılı olaraq, İnzibati Xətalar Məcəlləsinin 199-cu və ya Cinayət Məcəlləsinin 192-ci maddələrində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Vergi ödəyiciləri avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları ilə məşğul olmaq üçün xüsusi razılıq (lisenziya) aldıqdan sonra, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tələblərinə əsasən, hər bir avtomobil nəqliyyatı vasitəsi üçün «Fərqlənmə nişanı» alırlar.

VM-in 221.4.7-ci maddəsinə əsasən, avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün müvafiq icra hakimiyyəti orqanından təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» almalıdırlar.

Bildiririk ki, VM-in 218.1.1.1-ci maddəsinə əsasən, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsilə həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir.

«Fərqlənmə nişanı» almaq üçün vergi ödəyicisinin ərizəsinə həmin fəaliyyət üçün sadələşdirilmiş verginin ödənilməsini təsdiq edən bank ödəniş sənədi əlavə edilməlidir. Bank ödəniş sənədində avtomobil nəqliyyatı vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər hesablanmış vergini tam məbləğdə dövlət büdcəsinə ödədikdən sonra onlara «Fərqlənmə nişanı» verilir. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilmiş vergi onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir.

Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər nəzərə alınır və verginin ödənildiyini təsdiq edən «Fərqlənmə nişanı»nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

**Hüquq idarəsi**